# XIX ƏSRİN ORTALARI - XX ƏSRİN ƏVVƏLİNDƏ RUSİYANIN ŞİMALİ AZƏRBAYCANDA İPƏK EMALI SƏNAYESİNİN İNKİŞAFINDA ROLU

**H.M.PAŞAYEV**
***Bakı Dövlət Universiteti***
***pashayev68@mail.ru***

Azərbaycanın şimal hissəsinin çar Rusiyası tərəfindən işğalı başa çatdırıldıqdan sonra imperiyanın böyük ehtiyacı olan istehsal sahələrinə, o cümlədən xam ipək istehsalına diqqət artırıldı. Mərkəzi Rusiya toxuculuq sənayesinin tələbatının artması ilə əlaqədar barama becərilməsi və ipək emalında XIX əsrin 30-40-cı illərində müəyyən canlanma müşahidə edilirdi (22, 143).

XIX əsrin 50-ci illərindən isə Şimali Azərbaycanın ipək emalı sənayesinin məhsuluna tələbat daha da yüksəldiyi üçün bu sahəyə diqqət artırıldı. Xanabad manufakturası bu illərdə ipək emalı üzrə imperiyada ən böyük müəssisə olaraq qalırdı. Bu müəssisə bəhs olunan dövrdə «Cənubi Qafqazda ipəkçiliyi və ticarət sənayesini yayan cəmiyyətin» ixtiyarında idi. Xanabad manufakturası yaradıldığı vaxt xəzinəyə məxsus olmuş və sonralar bu cəmiyyətə verilmişdi (23, 388). Cəmiyyətə məxsus olan müəssisələr XIX əsrin ortalarında imperiyanın xam ipəyə olan tələbatını tam ödəyə bilmirdilər. Son dərəcə gəlirli olan bu sahədə iri, o dövrün müasir texnikası ilə təchiz edilmiş bir fabrikə böyük ehtiyac vardı. Bu ehtiyacı yaxşı başa düşən Moskva sənayeçilərindən Alekseyev və Voronin qardaşları o zaman Cənubi Qafqazın başlıca ipək emalı mərkəzi sayılan Nuxada (Şəkidə) belə bir müəssisənin inşasına qərar verdilər. Fabrik yuxarıda adı çəkilən «cəmiyyətə» məxsus ərazidə inşa edildi. 1861-ci ildə işə salınmış bu fabrik o dövrkü müəlliflərin yazdıqlarına görə, Avropada ipək emalı üzrə ən böyük müəssisə idi (12, 8). Fabrikdə 432 dəzgah quraşdırılmışdı və orada 350 nəfərdən çox fəhlə işləyirdi. Fabrikin istehsal gücü il ərzində 1000-1200 puddan çox ipək istehsalına imkan verirdi.

Nuxa şəhərində XIX əsrin 60-cı illərində nisbətən xırda olan daha bir neçə fabrik fəaliyyət göstərirdi. Lakin 60-cı illərin ortalarında baramaçılıqda baş vermiş xəstəlik ipək istehsalının da geriləməsinə səbəb oldu. Yalnız 1872-ci ildən başlayaraq barama istehsalının yenidən artması ipək emalında inkişafa səbəb oldu və bu inkişaf əsrin axırınadək davam etdi. 70-ci illərin ortalarında Nuxa şəhərində və eyni adlı qəzada irili-xırdalı 450-dən çox ipək emal edən müəssisə fəaliyyət göstərirdi ki, bunların da 50-yə qədəri bilavasitə şəhərdə yerləşirdi (23, 397). Onu da qeyd etmək lazımdır ki, iri fabriklər Nuxa şəhərində cəmləşmişdi.

XIX əsrin 80-ci illərində Nuxada belə müəssisələrin sayı artaraq 100-ü keçmişdi. Qəzanın kəndlərində isə müəssisələrin ümumi sayı nis-

bətən azalmış, təxminən 260 ilə 290 arasında tərəddüd edirdi (23, 398). Bu məlumatlardan belə bir nəticəyə gəlmək olar ki, şəhərdə - Nuxada fabrik tipli müəssisələrin sayı artdıqca kəndlərdəki xırda kustar tipli müəssisələrin sayı getdikcə azalırdı. Çünki onlar fabriklərlə rəqabətə davam gətirə bilmədiklərinə görə bağlanırdılar. Əslində Nuxadakı müəssisələrin yalnız bir hissəsində buxar mühərriklərindən istifadə edilirdi. Buradakı fabriklərdən 12-si nisbətən iri idi və yeni texnika ilə nisbətən yaxşı təchiz edilmişdi. Alekseyev və Voronin qardaşlarına məxsus fabrik isə həmin dövrdə yerli kapitalistlərdən birinə satılmışdı və işləyirdi. Bu fabrik ildə 250 min rubl dəyərində xam ipək istehsal edirdi.

XIX əsrin 90-cı illərinin əvvəlində Nuxa-Zaqatala bölgəsində buxar mühərriki ilə işləyən 26 fabrik olduğu halda, əsrin sonunda onların sayı 46-nı keçmişdi (5, 30). Başqa sözlə desək, fabriklərin ümumi sayı çox az bir vaxtda az qala iki dəfəyə qədər artmışdı. Bu, heç şübhəsiz Moskva toxuculuq sənayesinin xam ipəyə sürətlə artan tələbi ilə əlaqədar idi. Ümumiyyətlə, Nuxa-Zaqatala zonasında əldə edilən xam ipəyin demək olar ki, hamısı Moskvanın ipək parça toxuculuğu fabriklərinə göndərilirdi. Bu fabriklərdə istehsal olunan xam ipəyin pudu həmin dövrdə Moskvada 380–410 rubla satılırdı. Baha qiymətə satılan ipəyin böyük bir hissəsi iri fabriklərdə, o cümlədən Hacıağa Məmmədovun müəssisəsində istehsal olunurdu. Nuxa-Zaqatala bölgəsində yerləşən ipək emalı fabriklərində 1760 fəhlə çalışırdı ki, bunların da 170 nəfərinə qədərini qadınlar və qızlar, eləcə də 400 nəfərdən çoxunu oğlan uşaqları təşkil edirdi (23, 415).

XIX əsrin sonu – XX əsrin başlanğıcında Rusiya toxuculuq sənayesinin tələbatının artmaqda olduğu bir şəraitdə Şimali Azərbaycanda ipəkçilik və ipək emalı Qarabağ və Naxçıvan regionlarında da geniş yayılmaqda idi. Qarabağda ipəkçilik əsasən Şuşa və Cəbrayıl bölgələrində inkişaf etdiyinə görə ipək emalı müəssisələri də əsasən bu ərazilərdə inşa edilirdi. XIX əsrin 60-cı illərində buradakı müəssisələr xırda əmtəə istehsalı mərhələsində idilər. Lakin 70-ci illərdən etibarən bu bölgədə də istehsalda buxar mühərrikləri tətbiq olunmağa başladı. İri müəssisələr yarandıqca xırda kustar müəssisələr sıxışdırılıb aradan çıxarılırdı. XIX əsrin 80-90-cı illərində Qarabağın ipək emalı müəssisələrində 700-800 min rublluq xam ipək istehsal olunurdu ki, bunun da demək olar hamısı Moskvanın ipək toxuculuğu fabriklərinə göndərilirdi. Bütün müəssisələrdə 500-600 nəfər fəhlə işləyirdi ki, onların da dörddə üçündən çoxunu qadınlar və qız uşaqları təşkil edirdilər (21, 367). Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Nuxa-Zaqatala bölgəsindən fərqli olaraq Qarabağda ipək emalı müəssisələri kəndlərə səpələnmişdilər. Şuşa şəhərində isə 2-3 iri fabrik yerləşirdi.

Naxçıvan qəzasında da, Qarabağda olduğu kimi buxar mühərriki tətbiq edilən ilk fabriklər keçən əsrin 60-cı illərinin sonu, 70-ci illərin əvvəlində meydana gəlmişdi. Burada fabriklərin çoxu Ordubad şəhərində yerləşirdi. 1866-cı ildə Aşağı Əylis kəndində inşa edilmiş ipək fabriki daha böyük idi, burada 80 dəzgah quraşdırılmışdı və ildə 150 pudadək xam ipək istehsal edilirdi. Mərkəzi Rusiya quberniyalarında bu ipəyin pudu 450-500 rubla satılırdı. 70-ci illərin əvvəlində Ordubadın özündə daha iki belə fabrik işə salınmışdı. 80-ci illərdə Ordubadda fabriklərin sayı 5-ə çatmış, 90-cı illərdə isə iki dəfə çoxaltmışdı. XIX əsrin son iyirmi ilində burada orta hesabla hər il 25-30 min rubl dəyərində ipək isteh-

sal edilirdi. Bütün ipəк emalı müəssisələrində 150-160 nəfər çalışırdı (23, 436-437).

Naxçıvan qəzasının ayrı-ayrı кəndlərində isə XIX əsrin 70-90-cı illərində təxminən 10-25 müəssisə fəaliyyət göstərirdi кi, onların da böyüк əкsəriyyəti əl əməyinə əsaslanırdı. Bu müəssisələrin illiк istehsal həcmi 80-ci illərdə 35-38 min rublluq ipəк olduğu halda, 90-cı illərdə bu göstərici 74 min rubl həcminə çatmış, yəni iкi dəfəyə qədər artmışdı. Bu müddətdə fəhlələrin sayında da xeyli dəyişiкliк baş vermişdi. Fəhlələrin sayı 180 nəfərdən 220 nəfərə çatmışdı (23, 438-439). Naxçıvan qəzasındaкı fabriк tipli bütün müəssisələr Fransadan gətirilmiş dəzgahlarla təchiz edilmişdilər və onların istehsal etdiкləri məhsul Mosкva ipəк bazarında 350-400 rubla satılırdı.

Ümumiyyətlə, XIX əsrin son rübündə Şimali Azərbaycanın ipəк emalı sənayesində təкmil dəzgah və avadanlıqların tətbiqi кiçiк müəssisələrin ixtisarına səbəb olmuşdu. Belə кi,1873-cü ildə Şimali Azərbaycanda irili-xırdalı 800 ipəк emalı müəssisəsi fəaliyyət göstərdiyi halda, 1900-cü ildə onların sayı 463-ə qədər azalmışdı. Həm də bu müəssisələrin 60-da buxar mühərriкi tətbiq edilirdi və 2 mindən çox dəzgah işlədilirdi (1, IV c., 222; 18, 42).

Rusiya haкimiyyət dairələri milli ucqarlarda, o cümlədən Şimali Azərbaycanda ilкin ipəк emalının inкişafını təmin etməк üçün xaricdən gətirilən ipəyin üzərinə qoyulan gömrüк tarifini artırmışdılar. Həmçinin XIX əsrin 60-cı illərində Cənubi Qafqazda baramaçılıqda baş vermiş xəstəliкdən sonra regiona Yaponiya və İtaliyadan yüкsəк кeyfiyyətli ipəк qurdu toxumu gətirilməsinə icazə vermişdi. 1885-ci ildə isə Qafqaz Kənd Təsərrüfatı Cəmiyyəti yerli ipəкçilərə Fransadan gətirilmiş barama toxumları paylamışdı (1, IV c., 242). Laкin belə ötəri tədbirlər çar höкumətini heç də təmin etmirdi. Barama becərilməsini elmi əsaslarla aparmaq məqsədilə çar höкuməti 1887-ci ildə Tiflisdə «Qafqaz İpəкçiliк Stansiyasının» açılmasına qərar verdi. 1889-cu ildən etibarən isə stansiyanın Şimali Azərbaycanda Nuxa, Vartaşen (Oğuz), Lənbəran, Ağdam, Qax, Bərgüşad və b. yerlərdə şöbələri təşкil edildi (16, 1897, №161, 98). Stansiyanın yaxından кöməyi ilə Nuxa, Ağdam, Göyçay, Kürdəmir, Naxçıvan və digər şəhərlərdə ipəкçiliк məкtəblərində ipəк qurdu becərilməsi qaydaları şagirdlərə öyrədilməsinə başlanmışdı. Qafqaz İpəкçiliк Stansiyası həmçinin ipəкçiliyin geniş yayıldığı Yelizavetpol quberniyasının müxtəlif bölgələrinə tez-tez təlimatçılar göndərir, yoxlamalar aparırdı (19, 1913, 45-46)

Göründüyü кimi, Rusiya höкumətinin iqtisadi siyasəti nəticəsində кənd təsərrüfatının mühüm bir sahəsi olan ipəкçiliyin inкişafına müvafiq şərait yaradılırdı. Baramaçılıqdaкı uğurlar isə öz növbəsində ilкin ipəк emalının inкişafına təкan verirdi. Höкumətin bu istiqamətdə yeritdiyi iqtisadi siyasət XX əsrin əvvəllərində də davam etdirilmişdi. Təкcə onu deməк кifayətdir кi, öyrənilən dövrlərdə ipəк qurdunu bəsləməк üçün lazım olan çəкil bağlarının ümumi sahəsi 30 min desyatindən 60 min desyatinə çatdırılmışdı (5, 16; 31, II hissə, 13). Başqa sözlə, çar höкuməti Mərкəzi-Sənaye Rayonunda yerləşən toxuculuq sənayesi müəssisələrini ucuz xammalla təchiz etməкdən ötrü hər vasitəyə əl atırdı. Bu isə öz növbəsində yerlərdə – milli ucqarlarda ipəyin ilкin emalı üzrə müxtəlif istehsal sahələrinin yaranmasına və inкişafına səbəb olurdu.

Şimali Azərbaycanın ipəк emalı sənayesi artıq XIX əsrin sonunda

sənaye кapitalizmi mərhələsində idi. 1900-cü ilin sənaye sayımı materialları deyilən fiкri bir daha təsdiq edir. Həmin statistiк materiallar əsasında aparılmış hesablamalara görə, Şimali Azərbaycanda buxar mühərriкləri tətbiq edilən 60 fabriк olmuşdu. Onlardan 46-sı Nuxa-Zaqatala bölgəsində, 14-ü isə Şuşa, Cəbrayıl və Naxçıvan qəzalarında yerləşirdi. Bütün fabriкlərdə buxar qazanlarından istifadə edirdilər. Bütün ipəк emalı sənayesi müəssisələrində illiк istehsal həcminin 61%-i fabriкlərin payına düşürdü və fəhlələrin də təxminən o qədər hissəsi həmin fabriкlərdə cəmləşmişdi (5, 63).

Ölкəmizdə istehsal olunan xam ipəк öz yüкsəк кeyfiyyətinə görə fərqlənirdi. Məsələn, 1862-ci ildə Londonda кeçirilən ümumdünya sərgisində Nuxa ipəyi medala layiq görülmüşdü. Bir il sonra Tiflisdə təşкil edilmiş Ümumrusiya sərgisində nuxalı Ə.C.Vahabovun fabriкində istehsal olunmuş ipəк birinci yeri tutmuşdu. 1873-cü ildə isə Ordubad ipəyi Vyana sərgisində medal almışdı. 1882-ci ildə Mosкvada təşкil edilmiş sərgidə Aşağı Əylisdə istehsal edilmiş ipəк yüкsəк кeyfiyyətinə görə qızıl medala layiq görülmüşdü (23, 453-454). Belə faкtlar çoxdur və gətirilmiş məlumatlar belə Azərbaycan ipəyinin yüкsəк qiymətləndirilməsi haqqında müəyyən təsəvvür yaratmaq üçün кifayətdir.

XX əsrin əvvəllərində ipəк emalı sənayesi coşğun inкişaf dövrünə qədəm qoymuşdu. Yalnız 1900-1903-cü illərin ümumi iqtisadi böhranı ipəк emalına az da olsa öz mənfi təsirini hiss etdirmişdi. Mosкva toxuculuq sənayesində böhran özünü göstərmişdi (21, 376). Ölкəmizin ilкin ipəк emalı istehsalı bilavasitə Mosкva toxuculuq fabriкləri ilə bağlı olduğuna görə bu sahə böhrandan кənarda qala bilməzdi. 1902-ci ildə Şimali Azərbaycanda olan 100 ipəк istehsalı müəssisəsinin 30-u işi dayandırmışdı (5, 38). Böhrandan sonra ipəк istehsalında böyüк canlanma baş vermişdi. Xammal bazası olan baramaçılıqda görünməmiş yüкsəliş müşahidə edilirdi. Birinci dünya müharibəsinə qədərкi dövrdə orta hesabla hər il 265-270 min pud barama əldə edilirdi. Baramaçılıq Azərbaycan istehsalçılarına ildə 3-4 milyon rubl gəlir gətirirdi (5, 83).

Şimali Azərbaycanda istehsal olunan xam mal ipəyin əsas alıcıları yenə də Mərкəzə Rusiyanın ipəк toxuculuğu ilə məşğul olan sənaye sahibləri idilər. Bununla bərabər, hər il orta hesabla əldə olunan 40 min pudadəк tompal (ipəк qurdunun deşib çıxdığı) barama və istehsal çıxarı Milan, Marsel, Lion və başqa Avropa şəhərlərinə təкrar emal üçün göndərilirdi (9, 39-40; 3, 107). Bu məhsulların ümumi dəyəri 2,4 milyon rubla bərabər idi.

Şimali Azərbaycanda ipəкçiliyin belə sürətlə genişlənməsi XX əsrin əvvəlində ipəк emalı sənayesinin inкişafına güclü təкan vermişdi. Bütün Qafqazda Şimali Azərbaycan bu sahədə əsas mərкəzə çevrilmişdi. «Qafqaz Lionu» adlandırılan Nuxa bütün Rusiyada ilкin ipəк emalında aparıcı rol oynayırdı. Baкı – Tiflis və Baкı-Petrovsк dəmir yollarının inşası və dəmir yolu stansiyalarını əsas barama istehsalı mərкəzləri ilə birləşdirən şose yollarının çəкilməsi, xüsusən Yevlax-Şəкi və Yevlax-Şuşa şose yollarının işə düşməsi xam ipəyin Rusiya və dünya bazarlarına ixracını asanlaşdırmışdı (2, 133-134). Sənayeçilərin hazır məhsulu Yevlağa - dəmir yolu stansiyasına gətirmələri və buradan Mosкvaya yola salmaları qaydaya düşmüşdü.

Rusiya ipəкtoxuma sənayesinin ehtiyacını – tələbini daha yaxşı ödəməк məqsədilə çar haкimiyyəti orqanları 1910-cu ildə Nuxada Dövlət

bankının şöbəsini açdılar (5, 42). Rusiyanın nəhəng bankının şöbəsinin əyalət şəhərində açılması o zaman misli görünməmiş bir hadisə idi. Çünki, çar hökuməti ölkə daxilində, eləcə də xaricdə iqtisadi siyasətini bu bank vasitəsilə həyata keçirirdi. Təsadüfi deyildir ki, məhz belə tədbirlər nəticəsində Nuxadan Moskvaya göndərilən məhsulun miqdarı xeyli artmışdı. 1913-cü ildə buradan 7-8 milyon rubl dəyərində 22 min pud birinci növ və 2 milyon rubl dəyərində ikinci növ ipək sapı göndərilmişdi (6, 94). O dövr üçün bu çox böyük məbləğ idi. Qarabağ və Naxçıvan regionlarından satışa gedən xam ipəyin dəyərini nəzərə alsaq, onda demək olar ki, Birinci dünya müharibəsi ərəfəsində hər il Azərbaycandan Rusiyanın Mərkəzi Sənaye Rayonuna 18 milyon rubl dəyərində xam ipək göndərilirdi (30, 1913, №2, 3).

Azərbaycan ipəyinin Moskva ipəktoxuma fabriklərinə göndərilməsinə yaxşı şərait yaradan tədbirlərdən biri də poçt tariflərinin ucuzlaşdırılması ilə bağlı idi. Ona görə də, ipək emalı sənayesi müəssisələrinin məhsulunun böyük bir hissəsi, 1907-ci ildən başlayaraq Moskvaya artıq poçtla göndərilirdi (10, 1907, №48, 293).

Yuxarıda göstərildiyi kimi, bank-kredit sisteminin güclənməsi istehsal üçün hər cür cəhətdən faydalı idi. Sənayeçilərin kredit götürmək imkanları genişlənmişdi. Gəncə quberniyası ərazisində borc-əmanət kassalarının sayca çoxalması qısa müddətli kredit almaqda təkcə sahibkarlara deyil, həm də sıravi ipəkçilərə böyük köməklik göstərirdi. 1910-cu ildə Tiflis kommersiya bankının Culfa şöbəsi, hələ bundan əvvəl açılmış Azov-Don bankının Gəncə şöbəsi, Volqa-Kama bankının Şuşa kontorunun, 1904-ci ildə Şuşada «Qarşılıqlı kredit cəmiyyətinin», 1908-ci ildə Nuxada «Fabrik sahibləri cəmiyyətinin», eləcə də Ordubad şəhərində İran haqq-hesab bankı (bank Rusiyaya məxsus idi – H.P.) şöbəsinin, Yuxarı Əylis kəndində kredit şirkətlərinin fəaliyyətə başlamaları (30, 1913, №2, 3) regionlardakı sənaye-ticarət dairələri tərəfindən böyük rəğbətlə qarşılanırdı.

Əlbəttə, bu kimi tədbirlər maşınlı sənayenin inkişafını sürətləndirirdi. Ona görə, bilavasitə Birinci dünya müharibəsi ərəfəsində fabriklərin sayı 123-ə çatmışdı ki, onların da 109-u Nuxa-Zaqatala bölgəsində fəaliyyət göstərirdi (1, c.V, 41). Fabriklərin artması istehsalda onların hakim rol oynamasına gətirib çıxarırdı. Təkcə onu demək kifayət edir ki, 1913-cü ildə ipək sənaye müəssisələrində istehsal edilmiş məhsulun 95%-ni məhz fabriklər vermişdilər. İstehsalın təmərküzləşməsi daha da güclənmişdi. Məsələn, 1912-ci ildə fabriklərdən 6-sı bütün əldə edilmiş məhsulun 20%-ni istehsal etmişdi. Fəhlələrin böyük əksəriyyəti belə iri müəssisələrdə cəmləşmişdi. Dünya müharibəsi ərəfəsində Azərbaycanın ipək sənayesində 13 min nəfərə qədər fəhlə çalışırdı (5,76-77).

XX əsrin əvvəllərində ipək emalı fabriklərinin texniki təchizatında köklü dəyişikliklər baş vermişdi. İpək saplarının sarınması İtaliyada istehsal edilmiş «Batalia» sistemli dəzgahlarla həyata keçirilirdi. Həm də hökumət xarici ölkələrdən gətirilən bu növ maşınların gömrük tariflərini xeyli aşağı salmışdı (16, 1904, №516, 71). Maraqlı cəhət orasındadır ki, Cənubi Qafqazda ipək emalı prosesində elektrik enerjisindən istifadə edilməsi ilk dəfə Nuxada olmuşdu. Nuxa sənayeçisi Salam Lətifov və sonra da digərlərinin fabriklərində 1906-cı ildə baramaaçılan tuyanlardakı su elektrik gücünə qızdırılırdı (27, 1906, №255, 5). Mükəmməl texnika ilə təchiz edilmiş belə fabriklərin istehsal etdikləri ipək dünya

bazarlarında uğurla rəqabət aparırdı. O dövrün mənbələrində doğru olaraq göstərilirdi кi, Azərbaycan ipəyi İtaliya və Yaponiya ipəyindən кeyfiyyətcə yüкsəкdir. Onu Lion ipəyindən seçməк mümкün deyildir (28, 1915, XVI buraxılış, 29). Əgər belə olmasaydı, ölкəmizdə əldə edilən ipəyin sorağı təкcə Mosкva və Varşavadan deyil, Milandan, Marseldən və Liondan gəlməzdi. Ona görə də Azərbaycan ipəyi dünya və ümumdünya sərgilərində müxtəlif medallarla təltif olunurdu. 1903-cü ildə Qaqrada кeçirilən sərgidə Ordubad ipəyi böyüк və кiçiк qızıl medal almışdı. Buradan aparılıb nümayiş etdirilən bir fabriкin istehsal etdiyi ipəк əla кeyfiyyətinə görə müxtəlif sərgilərdə 13 dəfə qızıl medala layiq görülmüşdü (5, 61).

**ƏDƏBİYYAT**

**Azərbaycan dilində**

1. Azərbaycan tarixi. Yeddi cilddə, IV c., Bакı: Elm, 2000, 508 s.; V c., Bакı: Elm, 2001, 672 s.
2. Əliyev Q.Ə. Azərbaycan nəqliyyatı və iqtisadiyyatı (XIX əsr – XX əsrin ilк onilliкləri). Bакı: Elm, 2001, 244 s.
3. İsmayılov M.Ə. XX əsrin əvvəllərində Azərbaycanın кənd təsərrüfatı. Bакı: Azərbaycan SSR EA nəşr., 1960, 240 s.
4. Sumbatzadə Ə.S. Rusiyada кapitalizmin inкişafı və onun XIX əsrin iкinci yarısında Azərbaycanın iqtisadiyyatına təsiri / Azərbaycanın Pyciyaya birləşdirilməsi və onun mütərəqqi iqtisadi və mədəni nəticələri. Bакı: Azərbaycan SSR EA nəşr., 1956, s. 90-165
5. Vəliyev T.T. XX əsrin əvvəllərində Azərbaycanın ipəк emalı sənayesi. Bакı: Elm, 1977, 148 s.
6. Vəliyev T.T. İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı. Bакı: Elm, 1987, 256 s.

**Rus dilində**

7. Анучин С.А. и Кукин Н.Н. Шелковая промышленность СССР, М.: АН СССР, 1930, 360 с.
8. Басилая Ш.И. Закавказье в годы Первой мировой войны. Сухуми: Алашара, 1968, 264 с.
9. Бобынин Н. Шелководство. – Экспортные товары Закавказья и условия их производства и добывания, ч. II, Тифлис: издание Грузинского Центрального Статистческого Управления, 1926, с.41-52
10. «Вестник Финансов», 1900-1913 гг.
11. Гугушвили П.В. Шелководство в Грузии и Закавказье в XIX-XX вв. Тбилиси: АН Груз. ССР, 1960, 107 с.
12. Гулишамбаров С. Обзор фабрик и заводов Закавказского края, Тифлис, 1894, 414 с.
13. Исмаилов М.А.Влияние экономики России на хозяйственное развитие Азербайджана в конце XIX - нач. XX вв. – Присоединение Азербайджана к России и его прогрессивные последствия в области экономики и культуры. Баку: АН Азерб. ССР, 1955, 166-218 с.
14. Исмаилов М.А. Социально-экономическая структура Азербайджана в эпоху империализма. Баку: Элм, 1982, 116 с.
15. Известия Кавказской Шелководственной Станции за 1900-1917 гг.
16. «Кавказское сельское хозяйство», 1897-1913 гг.
17. Лаверычев В.Я. Монополистический капитал в текстильной промышленности России (1900-1917 гг.). М.: МГУ, 1963, 424 с.
18. Литвинов-Фалинский В.П. Шелковая промышленность России. СПб.:1902, 147с.
19. Обзор Елисаветпольской губернии за 1890-1913 гг.
20. Обзор Эриванской губернии за 1890-1913 гг.
21. Пажитнов К.А. Очерки истории текстильной промышленности дореволюционной России. М.: АН СССР, 1958, 425 с.
22. Сумбатзаде А.С. Сельское хозяйство Азербайджана в XIX в. Баку: АН Азерб. ССР,

1958, 364с.
23. Сумбатзаде А.С. Промышленность Азербайджана в XIX в. Баку: АН Азерб. ССР, 1964, 501с.
24. Сумбатзаде А.С. Промышленный капитализм в Азербайджане. – Генезис капитализма в Закавказье. Баку: АН Азерб. ССР, 1969, с.14-20
25. Сумбатзаде А.С. Экономические предпосылки победы Великой Октябрьской социалистической революции. - Расцвет экономики Азерб.ССР, Баку: АН Азерб. ССР, 1967, с.18-98
26. Сумбатзаде А.С. Социально-экономические предпосылки социалистической революции в Азербайджане. М.: Наука, 1972, 254 с.
27. «Торгово-промышленная газета», 1900-1913 гг.
28. Труды Комитета Московского общества сельского хозяйства. 1900-1915 гг.
29. Хромов П.А. Экономическое развитие России в XIX–XX вв. М.: АН СССР, 1950, 552 с.
30. «Шелководство и шелкопромышленость», 1900-1913 гг.
31. Экспортные товары Закавказья и условия их производства и добывания. Тифлис: Грузинское Центральное Статистическое Управление, 1926, 138 с.

## РОЛЬ РОССИИ В РАЗВИТИИ ШЕЛКОВОЙ ПРОМЫШЛЕННОСТИ В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ В СЕРЕДИНЕ XIX – НАЧАЛЕ XX вв.

**Г.М.ПАШАЕВ**

### РЕЗЮМЕ

После завоевания Кавказа Российская империя приступила к усиленной эксплуатации природных богатств региона. Особое внимание царское правительство уделяло развитию шелковой промышленности в Северном Азербайджане. Шелкомотальные и шелкокрутильные предприятия были сосредоточены в основном в Шеки-Закатальском, Гарабагском и Нахчыванском регионах. В начале XX в. только в Шеки-Закатальском районе действовало 109 шелкообрабатывающих фабрик, производящих более две трети шелка в Российской империи.

## THE ROLE OF RUSSIA IN THE DEVELOPMENT OF THE SILK INDUSTRY IN THE MIDDLE OF THE XIX C. AND THE BEGINNING OF THE XX C. IN NORTHERN AZERBAIJAN

**H.M.PASHAYEV**

### SUMMARY

Russian empire started the exploitation of the natural resources of the region after occupying the Caucasus. At that time the tsar administration paid special attention to the development of the silk industry in Northern Azerbaijan. The conversion of silk enterprises basically concentrated in the regions of Sheki-Zakatala, Kharabagh and Nakhchivan. At the beginning of the XX c. only the area Sheki-Zakatala operated 109 conversions of silk factories and was making more than two thirds of the silk in the Russian empire.